# AZƏRBAYCAN TƏLƏBƏLƏRİNİN II QURULTAYININ QƏTNAMƏSİ

Qurultay qeyd edir ki, 2007-ci ildə Bakı şəhərində keçirilmiş tələbələrin ilk ali məclisindən ötən dövr ərzində gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra mühüm nailiyyətlər əldə edilib. Ölkənin sosial-iqtisadi və ictimai-siyasi həyatında tələbə-gənclərin fəallığı, təşəbbüskarlığı, idarəetmədə rolu artıb, könüllülük hərəkatı genişlənib. Belə ki, son illərdə ölkəmizdə keçirilən Avroviziya Mahnı Müsabiqəsinin, I Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının və “Formula 1” Bakı Qran Prisi yarışlarının təşkilində tələbə-gənclər fəal iştirak ediblər.

“Azərbaycan gəncliyi 2005-2009-cu illərdə”, “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət proqramlarının uğurla həyata keçirilməsi, “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramının icrasına start verilməsi, “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nın təsdiq olunması, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması, istedadlı gənclər üçün Prezident Mükafatının təsis edilməsi gənclərin inkişafını stimullaşdırıb. Ölkədə istifadəyə verilən olimpiya kompleksləri, “Gənclər ev”ləri gənclərin inkişafına böyük töhfələr verib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın qurultaya təbrik məktubu tələbə-gənclərə göstərilən böyük diqqət və qayğının parlaq təzahürü olmaqla yanaşı, həm də ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətinin, gənclərin dünyanın yeni çağırışlarına cavab verən mükəmməl və keyfiyyətli təhsilinin aydın sabahına və uğurlu gələcəyinə böyük nikbinlik yaradır.

Qurultay hesab edir ki, tələbə-gənclərin məşğulluğu və sahibkarlığın inkişafı üçün biznes inkubatorlarının, texnoparkların yaradılması onların potensialının reallaşdırılmasına və rifah halının daha da yaxşılaşdırılmasına imkan verib. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı və qloballaşma prosesləri gənclərin həyat və düşüncə tərzinə də ciddi təsir göstərməkdədir. Bütün bu tədbirlər ölkəmizdə gənclər siyasəti sahəsində müsbət təcrübə və dəyişikliklərin əldə edilməsinə güclü təkan verib.

Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın uğurla həyata keçirilməsi nəticəsində təhsilin məzmunu, kadr hazırlığı, idarəetmə sistemi, maliyyələşmə və infrastrukturun qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulması istiqamətlərində əhəmiyyətli nailiyyətlər əldə olunub, gənclərin təhsilalma imkanları genişlənib.

Ölkə başçısının sərəncamı ilə təsdiq edilmiş “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” uğurla reallaşdırılıb, Proqram çərçivəsində 3558 nəfər azərbaycanlı gənc dünyanın ən nüfuzlu universitetlərində bakalavriat, magistratura və doktorantura səviyyələrində təhsil almaq imkanı qazanıb. Həmin gənclərin böyük əksəriyyəti artıq təhsillərini başa vuraraq geri qayıdıb və ölkəmizin gələcək inkişafına öz töhfələrini verməyə başlayıb.

Bu istiqamətdə aparılan işlərin davamı və dövlətimizin ali təhsilin inkişafına verdiyi yüksək önəmin növbəti nümunəsi bu günlərdə təsdiq edilmiş “2019-2023-ci illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”dır.

Ölkə Prezidentinin təşəbbüsü ilə yaradılmış və vətəndaşlarımıza xaricə getmədən Avropanın aparıcı universitetlərinin standartlarına uyğun keyfiyyətli təhsil almaq imkanı verən Azərbaycan-Fransız Universitetinin (UFAZ) yaradılması, Rusiyanın nüfuzlu universitetlərinin filiallarının fəaliyyətə başlaması ali təhsil sahəsində son illərdə həyata keçirilmiş mühüm layihələrdəndir.

Qurultay qeyd edir ki, ölkənin bütün ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsilin keyfiyyətinin yüksəldilməsi, ixtisaslı kadr hazırlığının təmin edilməsi məqsədi ilə informasiya texnologiyalarından istifadə daha da genişləndirilib.

İqtisadiyyatın diversifikasiyası və qeyri-neft sektorunun inkişafının təmin olunması baxımından 2016-cı ildə ölkə başçısının fərmanı ilə “Peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi” təsdiq edilib, 2018-ci ildə “Peşə təhsili haqqında” Qanun qəbul olunub. Peşə təhsili müəssisələri şəbəkəsinin rasionallaşdırılması nəticəsində 24 Peşə Təhsil Mərkəzi yaradılıb. Peşə təhsili müəssisələrində infrastrukturun müasirləşdirilməsi, kurikulumların yenilənməsi və mühəndis-pedaqoji heyətin ixtisasının artırılması istiqamətində çoxşaxəli işlər görülüb, nəticədə son illər əmək bazarında tələbatın daha çox olduğu ixtisaslar üzrə məzunların işlə təmin olunması göstəricisi xeyli yüksəlib.

Qurultay Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın təbrik məktubunda öz əksini tapmış konseptual müddəaları, “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nın hədəflərini, məruzə və çıxışlarda irəli sürülən təklifləri nəzərə alaraq, aşağıdakı istiqamətləri əhatə edən qətnaməni qəbul edir:

- tələbə-gənclərin dövlət quruculuğu prosesinə daha geniş cəlb edilməsi, yüksək akademik nailiyyətlərlə təhsil alan tələbələrin dövlət orqanlarında təcrübə keçmələri üçün şəraitin yaradılması;
- təhsil müəssisələrində azərbaycançılıq ideologiyasının təbliği, milli-mənəvi dəyərlərə hörmət hissinin aşılanması, Vətənə sədaqət, vətəndaşlıq mövqeyinin formalaşdırılması, vətənpərvərlik tərbiyəsi işinin sistemli təşkili;
- peşə təhsilinin əhatə dairəsinin, məzunların ixtisaslarına uyğun işlə təmin edilməsi imkanlarının genişləndirilməsi;
- kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, gənclərin sahibkarlıq təşəbbüslərinin, innovativ ideyalarının və yaradıcı layihələrinin reallaşdırılmasına dövlət dəstəyinin göstərilməsi;
- mədəniyyət, incəsənət, yaradıcılıq, idman sahələrində istedadlı gənclərin inkişafına dəstək göstərilməsi;
- tələbə-gənclərin iştirakı ilə mədəni-kütləvi tədbirlərin keçirilməsi, intellektual yarışların əhatə dairəsinin genişləndirilməsi, gənclər arasında sağlam həyat tərzinin və idmanın təbliği işinin təşkili;
- tələbə-gənclər üçün yay düşərgələrinin təşkili, təhsildə fərqlənən tələbələrin istirahəti və inkişafı üçün şəraitin yaradılması;
- xüsusilə aztəminatlı, valideynlərini itirmiş, şəhid ailələrindən olan tələbələrin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi;
- təhsilin əlçatanlığının təmin edilməsi məqsədi ilə yeni tələbə yataqxanalarının yaradılması, mövcud yataqxanaların müasir tələblər əsasında yenidən qurulması ilə bağlı təkliflərin hazırlanması;

- təhsil alan gənclərin sağlamlığının qorunması məqsədi ilə təhsil müəssisələrində tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması, ildə bir dəfə olmaqla tələbələrin pulsuz tibbi müayinədən keçməsinin və dövlət hesabına müalicəsinin təşkili.

Qurultay bəyan edir ki, müstəqil Azərbaycanın tələbə-gəncləri əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətini Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirəcək, peşəkar və rəqabətqabiliyyətli mütəxəssislər kimi ölkəmizin tərəqqisinə layiqli töhfələrini verəcəklər.

Bakı şəhəri, 21 dekabr 2018-ci il